

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 207 (24.344)

*7 noyabr 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik




## Azərbaycan Prezidenti İlham Əliyevin Xorvatiyanın Baş naziri Andrey Plenkoviç ilə görüşü olub

Noyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə təkbətək görüşü olub.

Sonra nümayəndə heyətlərinin iştirakı ilə Azərbaycan Prezidenti İlham Əliyevin və Xorvatiyanın Baş naziri Andrey Plenkoviçin nahar əsnasında geniş tərkibdə görüşü keçirilib.

Görüşdə Azərbaycan ilə Xorvatiya arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, energetika, turizm və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu. Hökumətlərarası komissiyanın iclasının tezliklə keçirilməsinin və bu çərçivədə iki ölkənin işgüzar dairələri arasında əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyi vurğulandı.

Xorvatiyanın minalardan əziyyət çəkən ölkə olaraq Azərbaycana bu sahədə dəstək vermək niyyəti müsbət qarşılandı, minaların təmizlənməsi sahəsində təcrübə mübadiləsinin və əməkdaşlığın vacibliyi qeyd edildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Həmçinin Xorvatiyanın Avropa İttifaqına və NATO-ya üzv ölkə olaraq Azərbaycanın bu təsisatlarla əməkdaşlığını daim dəstəklədiyi vurğulandı.

## Prezident İlham Əliyev Koreya Respublikasının Ticarət və Sənaye Palatası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Koreya Respublikasının Ticarət və Sənaye Palatasının və "SK Group" şirkətlər qrupunun sədri Çey Tae-vonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Çey Tae-von ölkəmizdə sonuncu dəfə 12 il əvvəl olduğunu qeyd edərək ötən dövr ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda baş verən inkişaf proseslərinin və qazanılan nailiyyətlərin onda dərin təəssürat oyatdığını dedi, bununla bağlı təbriklərini çatdırdı. Qonaq Azərbaycan ilə Koreya Respublikası arasında müxtəlif istiqamətlərdə iqtisadi əməkdaşlıq imkanlarını qeyd etdi.

Xüsusilə işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının tətbiqi ilə bağlı Koreya Respublikası şirkətinin təcrübəsi, Azərbaycanın zəngin bərpaolunan enerji potensialının reallaşdırılması, həmçinin ölkəmizin böyük mineral ehtiyatları, informasiya-kommunikasiya texnologiyaları, təhsil və insan kapitalının inkişafı sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu. Ölkələrimiz arasında turizm əlaqələrinin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.



Qeyd edək ki, 1953-cü ildə təsis olunan və baş ofisi Seul şəhərində yerləşən "SK Group" Koreya Respublikasının ikinci ən böyük şirkətlər qrupudur. Şirkətin ötənilki gəliri 150,9 milyard, aktivlərinin həcmi isə 246,9 milyard ABŞ dollarıdır. Qlobal miqyasda törəmə şirkətlərinin və filiallarının sayı 512, dünya üzrə əlaqəli şirkətlərinin sayı isə 198 olan "SK Group"un müxtəlif ölkələrdə 100 mindən çox işçisi var. Şirkət energetika və kimya, informasiya-kommunikasiya texnologiyaları, yarımkeçiricilər və qabaqcıl materiallar, logistika, xidmətlər, biosəhiyyə və əczaçılıq istiqamətlərində fəaliyyət göstərir.

**AZƏRTAC**

## Ali Məclisin Mətbuat xidmətinin məlumatı



2023-cü il 7 noyabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının növbəti iclası keçiriləcək.

## Ədliyyə nazirinin müavini vətəndaş qəbulu keçirib



Vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin vəzifələrini müvəqqəti icra edən, nazir müavini Hüseyn Səfərov nazirlikdə vətəndaşların qəbulunu keçirib.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, aparılan qəbul zamanı, əsasən, aliment və pul tələbi, uşaqla ünsiyyət, məhkəmə və digər orqanların qərarlarının icrası, bələdiyyə torpaqlarının icarəyə verilməsi, habelə işlə təmin olunma ilə bağlı, ümumilikdə, 12 vətəndaş qəbul edilib. Qəbula gələn hər bir vətəndaş diqqətlə dinlənilib, şikayət və ərizələri sənədləşdirilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə qəbulda iştirak edən nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

**Xəbərlər şöbəsi**

## 8 Noyabr – Zəfər Günü və 9 Noyabr – Bayraq Gününə həsr olunmuş elmi konfrans



*AMEA Naxçıvan Bölməsində keçirilən konfransdan əvvəl Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev konfransdakı giriş sözündə ermənilərin cəfəng ideyalarını gerçəkləşdirmək üçün yüzilliklər boyu tarixi Azərbaycan torpaqlarında yerləşdirilməsindən, ölkədə hökm sürən ictimai vəziyyətdən söz açıb.

Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi islahatlar əsasında günü-gündən güclənən ordumuz 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qəhrəmanlıq salnaməsi yazmağa müvəffəq oldu. Düşünülmüş və uzaqgörən siyasət, eləcə də əsgər və zabitlərimizin cəsarəti bizə torpaqlarımızın azadlıq sevincini yaşatdı.

Qarabağ zəfərinin üçüncü ildönümü ərəfəsində Xankəndi, Xocalı, Xocavənd, Əsgəran və Ağdərədə qaldırılan Azərbaycan Bayrağını qələbəmizin davamı kimi səciyyələndirən bölmə sədri bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə qəbul olunmuş bayrağımız 70 il sonra ilk dəfə olaraq Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi və təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən sessiyada qaldırılmış, həmin gündən etibarən üçrəngli bayraq mənəvi, mədəni birliyimizin, ərazi bütövlüyümüzün simvolu olmuşdur.

Konfransda bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyev, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, dosent Nuray Əliyeva, həmin institutun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədov, elmi işçi Aysel İsmayılova müxtəlif mövzularında məruzə ediblər. Məruzələrdə II Qarabağ müharibəsi zamanı ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun torpaqlarımızı işğaldan azad etməsindən, Qarabağ zəfərinin ölkəmiz üçün tarixi əhəmiyyətindən söz açılıb.

Sonda mövzu ətrafında fikir mübadiləsi aparılıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Ata vəsiyyəti və inamlı Zəfər

*Noyabrın 6-da Naxçıvan Şəhər İcra Hakimiyyətində "Ata vəsiyyəti və inamlı Zəfər" mövzusunda tədbir keçirilib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyev və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*



Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov 44 günlük Vətən müharibəsində əldə edilən böyük Zəfərin əhəmiyyətindən danışıb. Bildirilib ki, Vətən müharibəsində xalqımız öz rəhbərinin ətrafında sıx birləşərək Onu dəstəklədi, hər birimiz Azərbaycan əsgərinin igidliyinin, qəhrəmanlığının şahidi olduq. O qəhrəmanların sırasında doğma Naxçıvanımızın mərd oğulları da var idi. Böyük Zəfərin sərkərdəsi cənab İlham Əliyevin dönməz qətiyyəti, tarixi Zəfərə böyük inamı igidlərimizi qələbədən-qələbəyə apardı. Bu gün işğaldan azad edilən torpaqlarımızda üçrəngli bayrağımız əbədi dalğalanır, Qarabağ yeni dövrünü yaşayır.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, ölkəmizin müstəqillik qazandıqdan sonra bütün sahələrdə, eləcə də iqtisadi sahədə əldə etdiyi uğurlar xalqımızı böyük Qələbəyə daha da yaxınlaşdırdı. Milli ordu quruculuğu sahəsində həyata keçirilən genişmiqyaslı tədbirlər ölkəmizin hərbi qüdrətinin artmasında mühüm rol oynadı. 2020-ci ildə Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin səriştəli rəhbərliyi, ordumuzun şücaəti hesabına cəmi 44 gün ərzində xalqımız böyük Zəfərə nail oldu. Noyabrın 8-i Şuşanın işğaldan azad olunması Zəfərin əsasını təşkil etdi, noyabrın 10-da imzalanan üçtərəfli kapitulyasiya aktı ilə qarşı tərəf məğlubiyyəti qəbul etdi. Hər bir sahədə ata vəsiyyətini uğurla yerinə yetirən ölkə Prezidenti cənab İlham Əliyevin güclü liderlik qabiliyyəti ilə ordumuz bu il lokal antiterror əməliyyatları zamanı da uğurlar qazandı. Bu gün üçrəngli bayrağımız Xankəndidə və digər işğaldan azad edilmiş torpaqlarımızda qürurla dalğalanır.

Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Muxtar Respublika üzrə Baş İdarəsinin Naxçıvan şəhər idarəsinin rəisi polkovnik leytenant Anar Aqilov, "Naxçıvan şəhid ailələri" İctimai Birliyinin sədri Mais Gülməmmədov çıxışlarında qələbənin əldə edilməsində Azərbaycan əsgərinin, hərbçilərinin şücaətindən, qəhrəmanlığından söz açıb, şəhidlərimizin ruhunun daim Azərbaycan xalqının qəlbində yaşadılacağını qeyd ediblər.

Tədbirin sonunda mövzu ilə bağlı videoçarx nümayiş olunub.

**Güntac ŞAHMƏMMƏDLİ**



# “Türk Əsri” çağırışı altında Zirvə görüşü türk dövlətlərinin çoxşaxəli əməkdaşlığında yeni səhifə açacaq

*Türk dünyasında uzaqgörən, məqsədyönlü, prinsipial lider kimi şöhrət qazanan Prezident cənab İlham Əliyev hələ 2009-cu ilin oktyabrında türkdilli dövlət başçılarının Naxçıvan Zirvə görüşündə deyirdi:* ***“Vaxtilə Azərbaycanın tarixi torpağı, əzəli torpağı Zəngəzur bölgəsinin Azərbaycandan ayırıb Ermənistana birləşdirilməsi, demək olar ki, böyük Türk dünyasını coğrafi baxımdan parçaladı. Yəni Türk dünyasının vahid bir ailə kimi, vahid bir qüvvə kimi fəaliyyəti onilliklər ərzində dayandırılmışdır”.***

Bu gün isə Zəngəzur dəhlizinin reallığa çevrilməsi təkcə iqtisadi deyil, həm də böyük siyasi əhəmiyyət daşıyan tarixi hadisədir. Prezident cənab İlham Əliyev türkdilli dövlətlər arasında coğrafi bağlılığın bərpa edilməsinə, bütün Türk dünyasının birlik arzusunun reallığa çevrilməsinə misilsiz töhfələr verən liderdir. Türk Şurasının Naxçıvandan başlanan inkişaf yolunda dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycan təşkilatın inkişafına, onun sıralarının genişlənməsinə, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə və əlaqələrinin artmasına önəmli töhfələr verib.

Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir ərazini əhatə edir. Və TDT-yə üzv olan ölkələrin coğrafi mövqeyinə diqqət yetirsək, onların Şərqdən Qərbə uzanan və Orta Dəhliz təşkil edən nəqliyyat marşrutu üzərində yerləşdiyini aydın şəkildə görmək mümkündür.

Bu cəhətdən Qazaxıstanın Astana şəhərində Türk Dövlətləri Təşkilatının “Türk Əsri” çağırışı altında 10-cu yubiley Zirvə görüşü Türk dünyasının birliyinin gücləndirilməsi yolunda və həmçinin çoxşaxəli əməkdaşlıq istiqamətində yeni səhifədir. Astanada baş tutmuş Zirvə görüşü bir çox məqamları ilə diqqət çəkdi. Bir neçə gündür ki, dünya mediasının əsas müzakirə mövzusuna çevrilmiş tədbirdə önə çəkilən məsələlər qarşıdakı zaman üçün mühüm əhəmiyyət kəsb edəcək prioritetlər də sayıla bilər. “Türk Əsri” çağırışı altında keçirilən toplantıda irəli sürülən təşəbbüslər olduqca mühüm məqamları əhatə edir, xüsusilə Prezident cənab İlham Əliyevin çıxışında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlığın daha da artırılmasına ehtiyacın olmasını qeyd etməsi yeni dövr Türk Dövlətləri Təşkilatı üçün mühüm perspektiv yaradacağı əminliyini ifadə edir.

Zirvə görüşündə çıxış edən Azərbaycan Prezidenti cənab İlham Əliyev Türk Dövlətləri Təşkilatının böyük siyasi çəkiyə və nüfuza malik olduğunu qeyd etdi. Onun sözlərinə görə, TDT çərçivəsində baş tutan dialoq və inteqrasiya proseslərinin ümumtürk birliyi üçün yeni imkanlar yaradacağı şəksizdir: ***“Münasibətlərimizin inkişafı kontekstində nəqliyyat və logistika sahələri mühüm yer tutur. Azərbaycan Mərkəzi Asiya ölkələri ilə Türkiyə və Avropa bazarları arasında etibarlı tranzit ölkə kimi özünü təsdiqləyib. Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin dayanıqlı fəaliyyətinə öz dəyərli töhfəsini verir... Biz böyük Türk dünyasının bir hissəsiyik. Əminəm ki, dostluğumuz, qardaşlığımız əbədi olacaq. Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzu daha da artacaq”.***

Cənab Prezident bu istiqamətdə sıx əməkdaşlığımızın istənilən xarici təhdidlərin qarşısını birlikdə almağımıza imkan verəcəyini, Ermənistanın da beynəlxalq hüququ kobudcasına pozan ölkələrdən biri olduğunu və rəsmi İrəvanın Azərbaycan ərazilərində separatçılığı, terrorizmi dəstəklədiyini Zirvə görüşünün iştirakçılarının diqqətinə çatdırdı. 30 ilə yaxın müddət ərzində Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxlamış və burada qeyri-qanuni qondarma rejim yaratması, Ermənistanın işğalçı siyasəti və separatçılığı dəstəkləmək üçün atdığı bütün təxribatçı addımlar sonda onun ağır məğlubiyyəti ilə nəticələndi. Ölkəmiz özünün suverenliyini və konstitusiya quruluşunu tam bərpa etdi.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev də Zirvə görüşündəki çıxışında son illər Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı uğurları yüksək dəyərləndirdi.

Bu gün TDT dünya ölkələri tərəfindən mötəbər struktur kimi tanınır və üzv dövlətlərin sıx əməkdaşlığı və birgə səyləri sayəsində təşkilatın çəkisi hər gün artır. Azərbaycanın həm təşkilat daxilində, həm də ikitərəfli əsasda üzv ölkələrlə sıx əlaqələri var və TDT-yə üzv olan ölkələr arasında sıx dostluq və qardaşlıq münasibətlərinin mövcudluğu və onların bir-birini dəstəkləməsi bu təşkilatın inkişaf perspektivlərini müəyyən edən əsas amillərdən biridir.

Zirvə görüşündə çıxış edən Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycanın suverenliyinin bərpası istiqamətində hər zaman mühüm addımlar atdığını diqqətə çatdırdı: *“Bu fürsətdən istifadə edərək bildirmək istəyirəm ki, Qırğızıstan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü dəstəkləyir”.* Qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinin bütün Türk dövlətlərində qürur doğurduğunu və bunun sülh üçün geniş imkanlar açdığını vurğulayaraq dedi: *“Can Azərbaycan Qarabağın otuzillik işğalına Vətən müharibəsindən sonra birdəfəlik son qoydu. Bu tarixi uğurdan son dərəcə qürur və sevinc hissi duyuruq. Bununla da bölgəmizdə davamlı sülhə bir addım da yaxınlaşdıq. Açılan fürsət pəncərəsinin dəyərləndirilməsi ən böyük arzumuzdur. Ermənistanın Azərbaycan qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməsi vacibdir. Azərbaycanın qərb bölgəsi ilə Naxçıvanı birləşdirəcək kommunikasiya xəttinin həyata keçirilməsi də böyük önəm daşıyır. Bu xəttin açılması bütün bölgə ölkələrinin rifahına ciddi töhfə verməklə yanaşı, Türkiyəni də Ata yurdumuz olan Orta Asiya ilə birləşdirəcək. Bu prosesin uğurla başa çatdırılması üçün Türk dünyası olaraq Azərbaycana dəstəyimizi davam etdirməliyik”.*

Bəli, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev türkçülük, türk dövlətlərinin birliyi, Türk dünyasının güclənməsi ideyasını sözdə deyil, öz real fəaliyyəti ilə gerçəkləşdirir.

*Tam əminliklə deyə bilərik ki, ortaq dəyərlər, tarix və mədəniyyət, eləcə də üzv ölkələr arasında qarşılıqlı anlaşma, mövcud reallıqlar və həyata keçirilən layihələr bu təşkilatın rolunu daha da artırır, onu aparıcı beynəlxalq təşkilatlardan birinə çevirir. Bu baxımdan 10-cu Zirvə görüşü də türk dövlətlərinin çoxşaxəli əməkdaşlığında yeni səhifə açacaq.*

**Arzu ABDULLAYEV**
***Naxçıvan Dövlət Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru***

## Buraxılış mərasimi keçirilib



Əlahiddə Ümumqoşun Orduda növbəti gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu və qadın hərbi qulluqçu kurslarının uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi yad edilib, Dövlət Himni səsləndirilib.

Çıxış edənlər kurslar zamanı ordumuzun apardığı uğurlu döyüş əməliyyatlarında qazanılmış təcrübə ilə keçirilən məşğələlərin, ümumqoşun, ixtisas, fiziki hazırlıq dərslərinin və təlim-atış çalışmalarının şəxsi heyətin peşəkarlaşmasında mühüm rol oynadığını diqqətə çatdırıblar.

Məzunları təbrik edən Əlahiddə Ümumqoşun Ordu Komandanının müavini, general-mayor Rəhim Cəfərov bildirib ki, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasından sonra da ölkə başçısı tərəfindən ordu quruculuğu sahəsində bir çox islahatlar aparılır, ordumuzun daha da güclənməsi istiqamətində mühüm addımlar atılır. Aparılan islahatlarda ordumuzun peşəkar hərbi qulluqçularla təmin olunması da əsas məsələlərdən biri kimi daim diqqətdə saxlanılır. Bu məqsədlə Əlahiddə Ümumqoşun Orduda keçirilən ixtisas hazırlığı kurslarına xüsusi diqqət yetirilir, kursları bitirən gənclərimiz dərs və məşğələlər zamanı qazandıqları təcrübəni, nəzəri və praktiki bilikləri xidmət yerlərində qarşıya qoyulan tapşırıqların icrasında uğurla istifadə edirlər.

Sonra məzunlara sertifikat və hədiyyələr təqdim edilib. Kurs birinciləri xatirə lövhələrinə buraxılış emblemlərini vurduqdan sonra tribuna önündən təntənəli keçid olub. Sonda xatirə şəkli çəkdirilib.

**Kənan CƏLİLOV**

*2023-cü il “Heydər Əliyev İli”dir*

# Şərqdən parlayan Günəş

***Bu Günəş Azərbaycanın parlaq gələcəyində əbədi bərq vuracaq***

*Azərbaycan xalqının Ümummilli Lideri, dünya səviyyəli siyasi xadim Heydər Əliyev çoxəsrlik dövlətçilik tariximizdə yeni səhifə açan nadir, bənzərsiz şəxsiyyətdir. Tarixin yaddaşında əbədi iz qoymaq hər insana nəsib olmayan xoşbəxtlikdir. Bu yalnız Heydər Əliyev kimi dahi şəxsiyyətlərin qismətinə düşən müstəsna taledir. Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş Ulu Öndərin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir.*



Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaradılması, milli-mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanılması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, ilk milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz Ümummilli Lider Heydər Əliyevin xidmətləri sayəsində mümkün olub. Təsadüfi deyil ki, Ulu Öndərin fəaliyyəti öz miqyası və əhəmiyyəti etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxıb. Görkəmli dövlət xadimi xalqımızın yaddaşında yaradıcı, qurucu və xilaskar obrazını daim yaşadıb və qəlblərdə özünə əbədi Günəş hərarətini yaradıb. Dahi şəxsiyyətin Azərbaycana rəhbərlik etdiyi ötən əsrdə yaddaşlarda təkcə iqtisadi yüksəliş, həyatın bütün sahələrinin inkişafı dövrü, o cümlədən həm də elmin, təhsilin və mədəniyyətin misilsiz tərəqqisi illəri kimi qalıb. Məhz həmin dövrdə müstəqilliyimizin təməl daşları hörülüb, iqtisadi, sosial və mədəni potensialı formalaşıb.

Ulu Öndər Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərin həllinə yönəlmişdir. Ulu Öndər bəşəriyyət tarixində mənsub olduğu xalqa və millətə milli dövlət müstəqilliyini yenidən qazandıra bilən xilaskarlıq fenomenidir.

Xalqımızın böyük oğlunun Azərbaycana rəhbərlik etdiyi dövr, bütövlükdə, xalqın azadlıq, müstəqillik arzularının gerçəkləşməsinə, real hüquqi, siyasi və iqtisadi əsasların yaradılmasına, möhkəm baza üzərində qazanılmış dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, milli-mənəvi yüksəlişə nail olunmasına hesablanmış şanlı tarixi mərhələni əhatə edir. Ümummilli Liderin Azərbaycan qarşısındakı əvəzsiz tarixi xidmətlərinin ən qabarıq siyasi təzahürü isə Onun dayanıqlı milli dövlət qurması, onu möhkəmləndirməsidir.

Müasir Azərbaycan tarixinin dövlətçilik salnaməsində Ulu Öndər elə bir irs yaratmışdır ki, onun öyrənilməsinə uzun illər ehtiyac olacaqdır. Dünyada nüfuzlu siyasi xadim kimi tanınmış Ümummilli Liderimiz Sovetlər Birliyi kimi nəhəng dövlətin rəhbər şəxslərindən biri olmaqla öz fitri istedadı və şəxsi nüfuzu ilə fərqlənmişdi. O, ilk azərbaycanlı idi ki, belə yüksək zirvəyə gəlib çatmış və möhtəşəm xidmətləri ilə xalqının güvənc yerinə və bütün Türk dünyasının fəxrinə çevrilmişdi. Hər zaman Azərbaycan xalqının mənafeyini düşünən Ulu Öndər azərbaycanlı olması ilə fəxr edirdi. Dahi rəhbərin ***“Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!”*** müdrik kəlamı hər bir azərbaycanlının iftixarla səsləndirdiyi şüara çevrilmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi nadir simalardan biri, qalibiyyət əzmi ilə yaşayan və dövləti cəsarətlə idarə edən möhtəşəm şəxsiyyət idi.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan üçün çox böyük tarixi nailiyyətlər, tarixi uğurlar və tükənməz dövlətçilik təcrübələri, müstəqil Azərbaycanı, əbədi azadlığı miras qoymuşdur. Onun milli-mənəvi təleyimiz, gələcəyə doğru inkişafımız üçün yadigar qoyduğu sərvətlərdən biri də Azərbaycançılıq ideologiyası idi. Dahi siyasətçinin Azərbaycançılıq təlimində dövlətçiliyimizin və ideoloji düşüncəmizin tarixi ənənələri əsas yer tutur. Dünya azərbaycanlılarının I Qurultayındakı çıxışındakı ***“Biz həmişə Azərbaycançılıq ideologiyası ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda ümumbəşəri dəyərlərlə sintez və inteqrasiya etmək və bundan bəhrələnmək hər bir insanın inkişafını təmin etmək deməkdir!”*** kimi fikirləri Azərbaycançılıq məfkurəsinin tarixi proqram sənədi olduğunu əyani şəkildə sübuta yetirdi. Ulu Öndərin ən böyük tarixi nailiyyətlərindən biri də 20 sentyabr 1994-cü il tarixdə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən üç zəngin neft yatağının iri xarici neft şirkətləri ilə birgə işlənməsini nəzərdə tutan və 8 ölkənin 13 məşhur neft şirkəti ilə “Əsrin müqaviləsi”nin imzalanması oldu.

“Əsrin müqaviləsi” ilə Ümummilli Lider həm müstəqil Azərbaycanın iqtisadi strategiyasını müəyyənləşdirdi, həm də müstəqil dövlət ideologiyası olaraq Azərbaycançılığın iqtisadi təməllərini formalaşdırdı. Bununla da dahi şəxsiyyət Azərbaycançılığı dövlətçiliyə tətbiq etdi və buna əsaslanan milli dövlət yaratdı.

Ulu Öndərin Azərbaycançılıq təliminin təməlində məhz Azərbaycan dili dayanır. Qüdrətli şəxsiyyət Azərbaycan dilinin və ədəbiyyatının, Azərbaycan tarixinin, mədəniyyətinin və incəsənətinin Azərbaycançılıq məfkurəsi ilə dərkinin metod və strategiyasını formalaşdırdı.

Böyük dövlət xadimi çətin tarixi-siyasi situasiyalardan asanlıqla baş çıxaran, polad kimi möhkəm siyasi iradəyə malik lider, tarixin gedişatını öncədən görməyi və istiqamətləndirməyi bacaran böyük strateq idi. O, Azərbaycan xalqı və müstəqil dövlətçiliyimiz üçün zəngin nəzəri irs və qüdrətli tarixi təcrübə, idarəçilik təcrübəsi qoyub getmişdir. Onun böyük siyasi və milli dəyərə malik olan tarixi irsində Azərbaycana bağlanmayan, Azərbaycanın milli və tarixi taleyini əks etdirməyən bir fikir belə tapmaq mümkün deyil. Azərbaycançılıq Onun təkcə əməllərində deyil, qəlbində və zəkasında, daxili-mənəvi varlığında, əzəmətli şəxsiyyətində idi.

Ötən hər bir il bir daha təsdiq edir ki, sözün hər mənasında, böyük və ibrətamiz həyat yaşamış Ümummilli Lider Heydər Əliyevin ideya dünyasının, təməlini qoyduğu siyasi kursun, strateji inkişaf xətti çox uzaq gələcəyə hesablanıb və bu irsin tam şəkildə öyrənilməsi və idarəçilikdə tətbiq edilməsi üçün tarixin uzun bir zamana ehtiyacı olacaq.

**Ulduz EYVAZOVA**
***Naxçıvan Qarnizonu tam orta məktəbinin tarix müəllimi***

## Bulaq-abidənin açılış mərasimi olub

Şərur rayonunun Dərvişlər kəndində Vətən müharibəsi şəhidi Sahil Cəlilovun xatirəsini əbədiləşdirmək üçün inşa edilən bulaq-abidənin açılış mərasimi olub. Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himnimiz səsləndirilib.




Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin əməkdaşı Qoşqar Kamilov çıxış edərək bildirib ki, bugünkü müzəffər Ordumuzun əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Onun siyasi kursunun davamçısı cənab İlham Əliyevin bu sahəni diqqətdə saxlaması hesabına bu gün güclü ordumuz istənilən tapşırığı vaxtında yerinə yetirməyə malikdir. Bunun ifadəsidir ki, dövlət-xalq-ordu birliyi nəticəsində ordumuz 44 gün ərzində illərdir, işğalda olan torpaqlarımızı azad etdi. Bununla da ərazi bütövlüyümüz təmin olundu.

Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov dahi rəhbərin xalqımız qarşısındakı misilsiz xidmətlərindən, ordumuzun rəşadətindən və Ali Baş Komandanın uğurlu siyasətindən bəhs edib. Bildirib ki, 44 gün davam edən və qələbəmizlə başa çatan müharibədən üç il sonra – 2023-cü ilin sentyabr ayında keçirilən lokal xarakterli antiterror tədbirlərində ordumuz öz gücünü bir daha bütün dünyaya nümayiş etdirdi.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafəsi nazirinin müavini Nicat Babayev ölkəmizdə şəhid ailələrinə və qazilərə göstərilən qayğıdan danışıb.

Sonra çıxış edənlər şəhidin döyüş yolundan, igid oğullarımızın qəhrəmanlıqlarından bəhs ediblər. Bildirilib ki, Sahil Cəlilov döyüşlərdə göstərdiyi şücaətlərə görə ölkə başçısı tərəfindən medallarla təltif olunub.

Sonda məktəblilər Vətənə və şəhidlərimizə həsr olunmuş şeirlər söyləyiblər.

**Ramiyyə ƏKBƏROVA**

## Şəhidlərin adına bağ salınıb



Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini müvəqqəti icra edən Samiq Sadıxov "Bir çinar, bir şəhid" başlıqlı ağacəkmə aksiyasında iştirak edib.

Bağ Şahbuz Rayon Xəstəxanasının təşkilatçılığı ilə xəstəxananın həyətyanı sahəsində salınıb. "Bir şəhid, bir çinar" başlıqlı ağacəkmə aksiyasında rayonun 35 şəhidinin adına çinar ağacları əkilib. Hər bir ağacın yanında məlumat lövhələri yerləşdirilib. Şəhidin şəkli, adı, ata adı və soyadı olan məlumat lövhələrinə QR kodlar da yerləşdirilib. Kod oxudulan zaman şəhidin haqqında ətraflı məlumat oxumaq mümkün olur. Qeyd edək ki, bu Naxçıvanda ilk belə bağdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Bu yaxınlarda Naxçıvandan 22 rəssamın iştirak etdiyi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin qurulmasının 100 illiyi, eyni zamanda Zəfər Günü münasibətilə Çorum və Ərzurum şəhərlərində keçirilən Türkiyə-Azərbaycan qardaşlıq sərgisi maraqlı məqamlarla yadda qalıb. Bununla bağlı Naxçıvandan tədbirə qatılmış iştirakçılarla həmsöhbət olduq.*

## Sənətin gücü iki qardaş ölkənin rəssamlarını bir araya gətirdi



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı ***Ülviyyə Həmzəyeva*** sərgi barədə təəssüratlarını bölüşərək dedi: "Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Nilgün Ayşecik Çevik və Çorum bələdiyyə başkanı Halil İbrahim bəyin dəvəti ilə keçirilən həmin tədbirdə iştirak etdik. İğdırda ilk olaraq "Şuşa" adlı məktəbin açılışı reallaşdı. Məktəbdə Milli Qəhrəmanımız Mübariz İbrahimova həsr olunmuş bir otaq yaradılıb. Buradakı çıxışımda Mübariz İbrahimovun həyatı barədə ətraflı danışdım. Həmin tədbirdə iştirak etmək mən və sənət yoldaşlarım üçün qürurverici idi. Bu tədbirdən sonra Çorum şəhər bələdiyyəsinin nəzdində olan qalereyada təşkil edilmiş sərgidə iştirak etdik.




Müsahibim onu da diqqətimizə çatdırdı ki, sərgidə Naxçıvandan 40 rəssamın müxtəlif mövzularda işlədiyi rəsm, mis üzərində döymə, taxta üzərində yandırma, miniatür və qobelen sənət növündən nümunələr iştirakçılara təqdim olundu və maraqla qarşılandı: – Çorum valisi ilə görüşdük və rəssamlarımızın əsərlərindən ona da hədiyyə etdik. Çorum qədim ərazisi, abidələri olan bir şəhərdir. Rəssamlarımızla tarixi yerlərə, muzeylərə ekskursiyalar etdik. Çorumda qadınlar üçün bələdiyyə tərəfindən yaradılmış müəssisə var. Qadınlar müəllimlərin yönləndirməsi ilə öz əl işlərini hazırlayır. Buraya axın edən turistlərə də məhz həmin əl işləri hədiyyə edilir. Bizə də onlar tərəfindən hədiyyələr təqdim olundu. Çorum səfəri bizim üçün maraqlı və yaddaqalan oldu.

Müsahibimiz onu da vurğulayır ki, Çorumdan sonra Ərzurumda çox qədim tarixi olan qoşa minarəli mədrəsədə də sərgi təşkil olunmuşdu. Orada 80 əl işimizi nümayiş etdirdik. Sərgi zamanı 44 günlük Vətən müharibəsi qəhrəmanlarının fotokadrlarına baxış oldu. Bununla da Naxçıvan Rəssamlar Birliyi olaraq bu səfərlərlə həm Ulu Öndər Heydər Əliyevin, həm Türkiyə Cümhuriyyətinin 100 illiyini, eyni zamanda Prezident cənab İlham Əliyevin 20 illik fəaliyyətinin işığında Zəfər bayramımızı qeyd etdik.

Digər müsahibimiz Naxçıvan Müəllimlər İnstitutunun İncəsənət kafedrasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı ***Həbibə Allahverdiyeva*** oldu. O bildirdi ki, Çorum və Ərzurum şəhərlərində keçirilən "Türkiyə-Azərbaycan qardaşlıq sərgisi" Türkiyə-Azərbaycan dostluğunun, birliyinin bariz nümunəsi idi. Üç gün davam edən sərgilərdə mənim "Əshabi-kəhf", müəllim yoldaşlarım Ləman Məmmədovanın "Günəbaxanlar", Həbib Allahverdiyevin "Narlarla natürmort", Rübabə İmanlının "Narlar" əsərləri də yer almışdı. Qədim tarixə, mədəniyyətə malik Çorum şəhərinin müxtəlif yerlərinə gəzinti zamanı qədim Hitit mədəniyyəti tarixi haqqında geniş məlumat, maraqlı bilgilər əldə etdik. Çorumlu Obası, Gənclik Kamp Mərkəzində sərgidə iştirak edən rəssamlarla görüş keçirildi və bələdiyyə sədri Dr.Halil İbrahim tərəfindən plaket və hədiyyələr təqdim olundu. Ərzurumdakı sərginin açılışında Ərzurum Valisi Mustafa Çiftçi, Azərbaycanın Qarsdakı Baş konsulu Nuru Quliyev, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, millət vəkili Ülviyyə Həmzəyeva çıxış etdilər. Sərgi çərçivəsində Türkiyə-Azərbaycan dostluq və qardaşlıq bağlarından, Qarabağ Zəfərindən, iki ölkə arasında keçirilən bu kimi tədbirlərin mədəni əlaqələrin inkişafına verdiyi töhfələrdən danışıldı. Ərzurumun tarixi-memarlıq abidələri, muzeyləri ilə tanışlıq biz rəssamlarda geniş təəssüratlar yaratdı. Bu cür ekskursiyaların tez-tez təşkil olunması sevindirici haldır. Ona görə ki, əl işlərimizi təkcə Azərbaycan daxilində deyil, həm də beynəlxalq səviyyədə tanıda bilirik. Bizə göstərilən qonaqpərvərlik üçün təşkilatçılara dərin minnətdarlığımı bildirirəm.




*Müsahiblərimizin təəssüratları da belə deməyə əsas verir ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin qurulmasının 100 illiyinə, eyni zamanda Zəfər Gününə həsr olunan sərgi əsl bayram əhvali-ruhiyyəsində keçib, qardaşlıq nümunəsi kimi yadda qalıb.*

**Bülbül QULİYEVA**

*Kəngərli rayonunun dağlar qoynunda yerləşən bir kəndi var – Çalxanqala. Xalq etimologiyasına görə, bu kəndin adı yaxınlıqda yerləşən qalanın adından götürülüb və "Çal xanın qalası" deməkdir. Elmi araşdırmalarda isə Çalxanqala sözü tayfa adlarından yaranmış yer adı kimi göstərilir. Çelkan və qala sözlərinin birləşməsi kimi "çelkanların qalası" mənasında izah olunur. Budəfəki ekspedisiyamızın məqsədi bu kənddə məskunlaşan qədim torpaqlarımız olan Qərbi Azərbaycandan – Dərələyəz mahalından buraya məcburi köçürülmüş kənd əhalisi ilə görüşmək idi.*

*Tarixi Azərbaycan torpaqları*

## Yadıma Vətən düşüb

Bu yaşayış məntəqəsi tarixin keşməkeşlərinə sinə gərmiş qədim yurd yerlərimizdən biridir. Buraya XIX əsrdə gəlmə ermənilər yerləşdirilib. Sonralar kəndin adı da süni surətdə dəyişdirilərək digər qədim türkmənşəli yer-yurd adlarımız kimi təhrif olunub. 1980-ci illərin sonlarında gərginləşən Azərbaycan-Ermənistan münasibətləri indiki Ermənistan ərazisindəki qədim torpaqlarımızda yaşayan soydaşlarımızın öz ata-baba yurdlarından didərgin salınmasına gətirib çıxardı. Bu gün kəndin əhalisininin hamısı Dərələyəz mahalının indiki Ermənistan ərazisində olan hissəsindən olan məcburi köçkünlərdən ibarətdir. Onlardan biri – Qərbi Azərbaycanın Paşalı rayonunun indi "Gülüstan" adlandırılan İtqıran kəndinin 88 yaşlı sakini ***Gülxanım İmanova*** ilə həmsöhbət olduq. Gülxanım nənə İtqıranın yerli sakinləri olan Zamanlı tayfasındandır. Onlar 1988-ci ilin noyabr ayında öz doğma kəndlərini tərk etmək məcburiyyətində qalaraq Naxçıvana pənah gətiriblər. Əhalisinin hamısı azərbaycanlılardan ibarət olan İtqıran kəndi haqqında Gülxanım nənənin yurd yanğısı, doğma torpaqların həsrəti ilə keçmiş xatirələrini gözündə canlandıraraq verdiyi məlumatlardan aydın olur ki, mənfur qonşularımızın əsrlərboyu törətdiyi vəhşiliklər həmin ərazilərin yer adlarında da öz əksini tapıb. Onların yaşadığı rayonun ərazisində "Çalxan" adlı yer var və bura 1905-1907-ci illərdə ermənilərin həmin ərazini qana çalxayaraq törətdikləri qırğınlara görə xalq arasında belə adlandırılıb. Həmçinin rayonun Zeytə kəndi ərazisindəki Uşaqqırılan dərəsinin adı da orada böyüklərlə birlikdə uşaqların da vəhşiliklə qətlə yetirildiyini ifadə edir. Tarixin acı gerçəkliyi budur ki, bu bölgənin əhalisi öz nənə-babalarından eşitdikləri bu vəhşiliklərin bənzərlərinin də 80-ci illərin sonlarında şahidi olublar və nəticədə Qərbi Azərbaycan kimi böyük bir ərazimiz itirilib. Lakin xatirələr vərəqləndikcə Gülxanım nənə sanki öz qədim yurd yerlərinə qayıdır və oradakı güzəranını xatırlayır: – Ermənilərin dönə-dönə başlarına açdıqları oyunlardan ürək yanğısı ilə danışaraq deyir ki, o





vaxt mənim babam qlava imiş. Çıxırmış səngərə. Erməni də səngərdən enir gəlir aşağı. Hamı məcbur qalıb qaçır. Amma mənim nənəmin nənəsi xəstə olduğu üçün nənəm onu qoyub qaçmaq istəmir. Ermənilər doluşur həyətə. Həm xəstə qadını, həm də nənəmi vururlar. Babam bunu yuxarıdan görür və düşüb gəlib elə həyətdə cəviz toxmacarlığının altında onları dəfn edir. Amma bununla da bizim müsibətimiz bitmədi. Bizim dövrümüzdə ermənilər bir də igidlərimizi qırdılar. Doğmalarımızın məzarları o torpaqlarda qaldı. Biz də dolu evimizdən, dolu qapımızdan, dolu kövşənimizdən didərgin düşdük. Nəyimiz var idi qoyub çıxmağa məcbur olduq. Bizim Dərələyəz camaatı çox zəhmətkeş idi və öz zəhmətlərinin bəhrəsini də görürdülər. Orada çox zəngin təsərrüfatımız var idi. Torpaqla məşğul olur, əkib-biçirdik. Öz güzəranımızı çox gözəl qurmuşduq. Gözəl ev-eşik tikmişdik. Amma onların heç biri bizi narahat etmir. Bizi narahat edən torpaq həsrətidir. Ev tikmək, təsərrüfat yaratmaq həmişə mümkündür. Biz məskunlaşdığımız otuz beş ildə burada da öz şəraitimizi qurmuşuq. Dövlətimiz də bizə dəstək olub. Amma o torpaqların həsrəti bizi göynədir. Biz o dağların havasına, suyuna öyrəşmişik. Oranın hər şeyi bizim üçün indi də doğmadır. Bizim ən gözəl xatirələrimiz ora ilə bağlıdır. Bizdə el şənlikləri sazlı-sözlü keçərdi. Ən əziz məclislərimizi aşıqlara həvalə edər, Dərələyəz aşıqlarının şirin söhbətlərindən, deyişmələrindən doymazdıq. Baxmayaraq ki, biz ermənilərin əhatəsində yaşayırdıq öz adət-ənənələrimizi çox yaxşı qoruyub saxlamışdıq. Həm dini, həm milli bayramlarımızın hər birinin özünəməxsus yeri var idi. Xıdır Nəbi, Novruz, Qurban, Ramazan bayramları bizdə xüsusi qeyd olunardı. Kənd qadınları yığışıb təndirdə çörək yapardılar. Evdən-evə pay gedərdi. Bayramlarda böyüklər xatırlanardı.

Gülxanım nənə ata-baba yurdu haqqında ağızdolusu danışır, danışdıqca da kövrəlir, sanki bir anlıq o günlərə qayıdır, Vətən həsrəti ilə Qərbi Azərbaycan folklorundan nümunələr söyləyir:

*Əzizim, çapar məni,*
*Dərd talar, çapar məni.*
*Yadıma Vətən düşüb,*
*Vətənə apar məni.*

Çalxanqala kəndinin Dərələyəz mahalının müxtəlif kəndlərindən – Əmağu, Ağkənd, Gülüstan, Soylan (Çappa Çommaxlı), İtqıran, Daylaxlıdan gəlmiş əhalisi ilə söhbətlərdən aydın olur ki, üstündən uzun illər keçməsinə baxmayaraq, onlar hələ də yurd yanğısı ilə yaşayırlar. O yerlərin adını çəkdikcə insanların dəyişən üz ifadələri danışdıqları xatirələr Vətən həsrətini yenidən xatırladır. Bu məqamda xatırlamaq yerinə düşər ki, dünyadan köçənə qədər həmin torpaqların həsrəti ilə yaşayan və bu həsrəti ustalıqla sətirlərə köçürən görkəmli alim, şair, ictimai xadim Həsən Mirzə də Çalxanqala kəndinin sakinləri kimi özünün Dərələyəz dərdini belə ifadə edirdi:

*Sənsiz qışa dönüb baharım, yazım,*
*Susubdur kamanım, dillənmir sazım.*
*Həsənəm, bu dərdi de, necə yazım?*
*Didərgin olubdur el, Dərələyəz!*
*Göz yaşım olubdur sel, Dərələyəz!..*

Bu gün bütün mənbələr Dərələyəzin Azərbaycanın qədim torpaqları olduğunu sübut edir. Təkcə elə insanların adını çəkdikləri qədim yer-yurd adlarımız göstərir ki, bu torpaqlar qədimdən bəri türk yurdu olub. Burada formalaşmış folklor da həmin türk tayfalarının yaradıcılıq məhsuludur. Bölgə əhalisi tərəfindən qorunub saxlanan adət-ənənələr, inanclar buranın qədim tarixindən xəbər verir və Azərbaycan xalqının ənənə, inanclar sisteminin məntiqi davamıdır. Lakin hiyləgər qonşularımızın uzun əsrlər yürütdüyü məkrli siyasətin nəticəsində bu doğma torpaqlar zorla öz sakinlərindən alınıb. Bu gün həmin torpaqlara qayıtmaq bu insanların mənəvi haqqıdır. Onlar bu yolda dövlətimizin yürütdüyü siyasəti dəstəkləyir. Bu siyasətin uğur qazanacağına insanların inamı böyükdür və onlar səbirsizliklə gözlədikləri günü, yetişəcək məqamı gözləyirlər.

**Nuray ƏLİYEVA**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, filologiya elmləri doktoru***

# Payızın nağılı

***Payız rəssamın hələ çəkmədiyi, amma çəkmək arzusunda olduğu bir tablodur. Payız bəstəkarın hələ yazmadığı həzin bir musiqi, şairin hələ qələmə almadığı şeirdir. Həyatla ölümün, başlanğıclarla sonun qarşılaşmasıdır payız. Qışın çox sərt soyuğu ilə isti və bürkülü yayın tən ortasında ilk payız küləyi ilə həyat yenidən başlayır.***

***Havanın kifayət qədər sərin, Günəşin isə üzünü öpərək səni oyandırdığı ideal payız günlərindən biri idi... Günəşin öləziyən şüalarının torpağı isitməyə gücü çatmırdı artıq. Yay fəslinin yandırıcı Günəş şüalarını payızın ılıq, məstedici Günəşi əvəz etmişdi. Meşənin kənarındakı qoca palıd payız Günəşinin şəfəqləri altında isinərək həzin bir halda cırıldayıb, uzunmüddətli qış yuxusu barəsində fikrə getmişdi. Payız qoca palıda həyat deyilən ömür yolundan bəzi məqamları xatırladırdı indi. Hər payız fəslində ağacdan düşən yarpaq ömür ağacından da bir yarpaq düşdüyünü xatırladırdı. Budağından ayrılan hər yarpaq düşməyə məhkumdur, payız isə bu ayrılığa bəhanədir.***

Yüzillik budaqlarını yaşıl mamır yorğanına bürümüş qoca palıd payızın səhvsiz bir səsi var deyə düşünür: yerə əlvan xalılar kimi döşənmiş yarpaqların xışıltısı, xəzanın sarı, qırmızı rəngləri arasında təzətər otların gözoxşayan yaşıllığı payız günlərini bir qədər də ətirli yaz günlərinə bənzədir.

Yazın güllü-çiçəkli yaşıllığını, ətirli havasını, quşların havada qanad süzüb, cəh-cəh vurduğu, budaqlarında yuvalarını qurduğu, yayın isti günlərində meşə sakinlərinin və insanların geniş çətiri altında kölgələnib istirahət etdiyi zamanları yadına salırdı qocaman palıd. Budaqlarındakı yuvalarında Günəşdən, küləkdən, yağışdan, yırtıcılardan qoruduğu, böyüməyinə şahidlik etdiyi quşlar lap çoxdan yuvadan uçmuşdular. İndi meşə sakinləri də onun həndəvərində az-az görünürdülər. İnsanlar isə çoxdandır ki, bu tərəflərə gəlmirdi. Yəqin ki, payız hər kəsin əl-ayağını kəsmişdi meşədən...

Dünya yola salan qoca palıdın gözü yolda qalıb, tənhalaşıbdı indi. Sərt daşlara dəyib köpüklənərək gurhagurla axan dağ çayının nəğməsini dinləyir bu tənhalıqda. Çayın aram səsi budaqları arasından axıb keçdiyi meşəyə son payız nəğməsini oxuyur. Bu səs həm də təbiəti qış yuxusuna səsləyən payızın laylasıdır elə bil ki. Həm də bu çay içindən axıb keçdiyi meşəyə və elə qoca palıdın özünə gördüklərindən, eşitdiklərindən, şahidi olduqlarından danışır, dünyanın gərdişindən söhbət açır. Yayın istisində də, qışın soyuğunda da öz axarını davam etdirən bu çay qoca palıdın əsrlik yolyoldaşıdır. Gözünü Günəşin işığına açandan onu burada səs-küylə axan görüb.

Palıdın başı ərşə dayanan qocaman budaqlarındakı qozalar artıq yetişib, torpaqla qovuşmağa tələsir. Alma, armud, alça, itburnu, yemişan meyvələri isə qızaran yarpaqlar arasından düşən Günəş şüaları ilə bərq vuraraq meşə sakinlərini özünə səsləyir və onların qışlıq azuqəsinə çevrilir. Budaqlarına ağırlıq edib torpağa düşən dadlı, şirin meyvələri görən qoca palıd düşünür ki, yəqin, meşə sakinləri buna görə onun həndəvərində çox görünmür. Amma onun qozalarını torpaq altında qazıdıqları yuvaya daşıyan meşə sakinləri heç də az deyil. Bu, palıda bir az təsəlli olur, özünü daha yararlı hiss edir.

Torpaq yavaş-yavaş sarı, qızılı xalıya bürünür. Mamır bağlamış çürük kötüyün yaxınlığında artıq payız xəzanından yorğan da var. Gah yağan yağışlar yuyur bu xalını, gah da qışdan xəbər verən soyuq küləklər darayır. Soyuq payız küləkləri əsdikcə, qocaman ağacların yarpaqları titrəyir. Payızın soyuğundan bir palıd ağacına sığınan yarpaqlar yüzlərlə kəpənək qanadları kimi çırpınır. Payızın hökmüylə əsən şiddətli payız küləkləri ağacların son bəzəyini də – qurumuş, yüngül yarpaqları da qoparıb havada rəqs etdirərək yaş torpağın üstünə sərir. Torpaq verdiyini geri alır, ağaclar bir yaş da qocalır. Küləklə budağından ayrılan hər qurumuş yarpaq isə kölgəsini itirmiş ağacla bir ayrılıq sevdası yaşayır.



Qışın xəbərçisi olan payız düşündürür qoca palıdı. Çünki payız ana təbiəti dəyişirdi. Payız Günəşinin şəfəqləri ilə yarpaqlar rənglərini əlvanlaşdırıb. Qoca palıd bu mənzərəni hər il seyr edirdi. Hər yaz meşənin yenidən yaşıllaşmasına, canlanmasına, həyatın yenidən başlamasına, hər payız quruyub xəzəl olmasına şahidlik edirdi. Amma yenə də kədərlənirdi. Sanki bu tənhalıq, səssizlik sıxırdı onu. Payız özünün son nəğməsini zümzümə edirdi. Hardasa buludlar ağlayırdı payızın son zümzüməsinə. Qara buludların göz yaşlarında çətirsiz ağaclar hər gün yuyunurdu.



Günəş və külək, doğrudan da, ruhlandırır. Amma yağış üstün gəlir. Payız fəslinin yaraşığı, büsatıdı yağış... Solğun yarpaq rəngləri, əsən külək, payız yağışının səsindəki qəribəlik, həzinlik... Payız fəslinin öz ruhu var; payız ruha sakitlik, duyğulara isə inanılmaz zövq verir. Payız onu duymağa, onu hiss etməyə, onunla iç-içə yaşamağa çağırır insanı. Çünki payız duyğuların dilə gəldiyi, sevgilərin etiraf edildiyi fəsildir. Buna görə də təbiət insan oğlunu daha duyğulu olmağa sövq edir, onu kövrək notlara kökləyir.

Bir payız günündə, payız libasına bürünən təbiətin qoynunda ağaclardan yağış kimi üstünə tökülən yarpaqların seyrinə dalmaq, xəzəllərin xışıltısını duymaq. Payızın gözəlliyi də elə qızılı rəngə çalan libasında, bir də ki yağışındadır.

Deyirlər ki, qış qravüra, bahar akvarel, yay yağlı boya, payız isə hər üçünün mozaikasıdır. Payız fəsli sanki ağacları əlvan rənglərlə boyayan mahir bir rəssamdır: qırmızı, sarı, narıncı, bənövşəyi, ağlınıza gələ biləcək hər rəng. Erkən payızda əlvan yarpaqlardan ibarət qeyri-adi "yağış yağır". Təəssüf ki, bu gözəllik çox davam etmir: yarpaqlar tökülür, otlar saralır, güllər solur. Qızılı payız təbiətlə insan arasında xoş duyğular yaradır. Məmməd Araz əbəs yerə demirdi ki, payız şeir yazmaq üçün gözəl fəsildir.

***

Üç il əvvəl təbiət növbəti payızını qarşılayanda biz onu çox fərqli hisslərlə yaşayırdıq. Duyğularımız, düşüncələrimiz, arzularımız, sevinclərimiz, kədərlərimiz hamısı eyni idi. O payızda başlayan Vətən müharibəsindən tezliklə qalib ayrılmaq, Vətənin bütövlüyünü təmin etmək və igidlərimizin sağ-salamat, Allah amanında olması hər kəsin tək arzusu idi. O payızı yaşayanda dilimizdə həmin günə qədər eşitmədiyimiz, ağlımızdan keçirmədiyimiz başqa misralar dolaşırdı:

*Payız, səndən bir ricam var,*
*Çox tələsmə...*
*Qoy geciksin boranlı qar!*
*Vətənimin yad əllərdə*
*hələ əsir torpaqları,*
*Döyüşlərdə əsgəri var...*

Sözümüzü eşitdi payız. Öz sərtliyini cilovladı, tələsmədi, mülayim oldu. Zirvələrə can atan, əli silah tətiyində olan əsgərimizin dəstəkçisi oldu. Bizə qalibiyyəti, zəfəri gətirdi. Payız bizim gücümüzü, birliyimizi bir daha göstərdi. Və payız bizə özünü bu torpağa qurban vermiş şəhidləri gətirdi. Hər başlanğıc bir son, hər son isə, əslində, yeni bir başlanğıcdır. Özünü Vətənə qurban verənlər üçün sonun yox, əbədiyyətin başlanğıcı oldu payız.



Bu il yenidən eyni duyğular hakim kəsildi qəlbimizə – yenə sentyabr, yenə payızın astanası. Azərbaycan Ordusunun cəmi 23 saat 43 dəqiqə davam edən lokal xarakterli antiterror əməliyyatı düşməni ağ bayraq qaldırmağa məcbur etdi. Bu payızın ətri də, nəğməsi də, bu payızın rəngləri də daha möhtəşəm, daha əlvan oldu. Bu payızın rəngləri ilə həmahəng olan Azərbaycan Bayrağı bütün Qarabağda ərşə çəkildi, dalğalandı...

Ona görə də bu payız başqa payızlara bənzəmir. Bir də heç vaxt bənzəməyəcək. Sadəcə, "payız" deyib keçməyəcəyik, keçə bilməyəcəyik. Bizi həm qürur, həm təəssüf, həm sevinc, həm də kədər göz yaşlarına qərq etdi bu payız. Bu payızda qəhrəman oğullar Vətən üçün can alıb, can verdi. Son nəfəslərini, arzularını, xəyallarını, sevgilərini bu payız qurban verdilər Vətənə, gömdülər Vətən torpağına. Zəfərin məğrur duruşu ilə yaddaşımızda əbədi yaşayacaq payızın şəhidləri. Və payız bir də heç vaxt əvvəlki kimi olmayacaq. Çünki bu payız və bundan sonrakı hər payız sizin cəsarətinizlə bizim üçün ZƏFƏR PAYIZI olacaq...



***

Meşə nə haqdasa fikrə gedərək qəmli və sakit bir halda donub qalmışdı. Yəqin ki, ağacların öz gözəl və təmtəraqlı paltarlarından məhrum olaraq budaqlarını soyuq yağış və borana təslim edəcəyi haqqında düşünürdü. Meşə kənarındakı qoca palıd isə təbiətlə birlikdə uzun qış yuxusuna hazırlaşır. Hazırlaşır ki, baharda yenidən oyansın və canlansın, yenidən dünyanın gərdişinə,



quşların budaqlarında yuva salmasına, insanların və meşə sakinlərinin kölgəsində dincəlməsinə tamaşa edib və onların "söhbətini" dinləyin... Hazırlaşır ki, yenidən dağ çayının nəğməsinə, onun lap uzaqlardan eşidib özü ilə gətirdiyi yeni hekayələrə, əhvalatlara qulaq assın...

Yarpaqların xəzan olduğu, təbiətin minbir gözəlliyə büründüyü romantikanın fəslidir payız. Bizim üçün artıq QƏLƏBƏnin fəslidir payız. Vətənin bütövlüyünün, tamlığının, şəhadətə yüksəlmiş igidlərin, müzəffər Ordunun, sarsılmaz qardaşlığın fəslidir payız. Payız ilin ən heyranedici son təbəssümüdür. Payız hər yarpağın çiçək olduğu ikinci bahardır. Payız əhvali-ruhiyyədir, ona sevgiylə bax.

**✍ Məmməd BABAYEV**

## Gənclər Zəfər əzmi ilə yarışıblar



İlham Əliyev adına Olimpiya İdman Kompleksində 8 Noyabr – Zəfər Gününə həsr olunmuş kadetlər və yeniyetmələr arasında kikboksinq üzrə muxtar respublika birinciliyi keçirilib. 2008-2009 və 2010-2012-ci il təvəllüdlülər əhatə edən birincilikdə 15 çəki dərəcəsi üzrə 78 idmançı mübarizə aparıb.

Yarışa start verilməzdən öncə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri səlahiyyətlərini icra edən nazir müavini, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov, Milli Məclisin deputatı Cəbi Quliyev və Naxçıvan Kikboksinq Federasiyasının sədri Xəyal Abdullayev yarışın məqsəd və əhəmiyyəti barədə danışıb, iştirakçılara uğurlar arzulayıblar. Rəsmilər Milli Məclisin sədr müavini, eyni zamanda Milli Məclisin Gənclər və idman komitəsinin sədri Adil Əliyev tərəfindən Naxçıvan kikboksçuları üçün göndərilmiş hədiyyələri təqdim ediblər.

Sonra birincilikdə mübarizəyə start verilib. Nəticələrə əsasən 2008-2009-cu il təvəllüdlülər arasında Əbülfəz Zeynallı (75 kiloqram), Uğur Əliyev (67 kiloqram), Kazım Hacıyev (62 kiloqram), Polad İsmayılov (57 kiloqram), Oğuz Məmmədli (52 kiloqram), Tunar Nəsirli (48 kiloqram), Tayfur Əliyev (45 kiloqram), 2010-2012-ci il təvəllüdlülər arasında isə Elxan Oruczadə (62 kiloqram), Turqut Abdullayev (57 kiloqram), Amir Nəcəfov (52 kiloqram), Nurəli Əsgərov (47 kiloqram), Əli Nəsrullayev (42 kiloqram), Uğur Məmmədli (38 kiloqram) və Rəvan Əsgərov (34 kiloqram) yarışın qalibi olublar. İlk üç yerin sahibləri diplom və medallarla mükafatlandırılıb.

***

"Heydər Əliyev İli" çərçivəsində yeniyetmə oğlanlar və qızlar arasında Zəfər Gününə həsr olunmuş voleybol üzrə muxtar respublika birinciliklərində bu gün final görüşləri keçirilib. İlham Əliyev adına Olimpiya İdman Kompleksində reallaşan tədbirdə tamaşaçılar qızlarda "Sədərək"-"Ordubad" (2:0), oğlanlarda isə "Şərur"-"Culfa" (2:0) finalını izləyiblər. Sonra ilk üç yerin sahibləri və fərqlənən voleybolçular diplom, fəxri fərman, medal və hədiyyələrlə mükafatlandırılıblar.



Mükafatları Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri səlahiyyətlərini müvəqqəti icra edən, nazir müavini Məcid Seyidov, Naxçıvan Voleybol Federasiyasının (NVF) prezidenti Vüqar Əliyev təqdim ediblər.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və NVF-nın birgə təşkilatçılığı ilə oktyabrın 30-da start götürən yarışlara, ümumilikdə, 16 komanda qatılıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonunun Ələkli kəndində Abbasova Roza Məhərrəm qızının adına verilmiş JN-48$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" və JN-300 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Danyeri kənd sakini Həsənova Rəna Tağı qızının adına olan JN-525$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Musayev Şahin Sadıq oğlunun adına olan evin 3117 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 650